Türküstan.- 2020.-





*Paşa Talıblı (Talıblı Paşa Ziyəddib oğlu) 1961-ci ildə BorçalınınBolnisi rayonunun Kəpənəkçi kəndində anadan olub. Ali təhsilini BDU-da alıb.*

*Yaradıcılığa məktəb illərindən başlayan şairin Vətəndə yaşadığı vaxtlarda aktiv ədəbi fəailiyyəti olub.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü olan şair Paşa Talıblı uzun illərdir ki, Rusiyanın Volqoqrad şəhərində yaşayır.*

*Ailəlidir, iki oğlu var.*

***

Arazın suyuyla öpüş vaxtının,
Araz qırağında örüş vaxtının,
bəlkə də Allahla görüş vaxtının
yelinə uçurlar səmt küləkləri.

Hamının küləyi səmtinə əsir,
hamının üzünə əsir küləyi.
Yaxasını açan deyil özgənin...
Hamının özünə əsir küləyi.

Yüz səmtə küləklər əsirdi onda...
Biri də yanımdan keçə bilmədi-
uzaqdan əsirdi, gendən əsirdi...
...yağışlar bir zaman məndən yağırdı,
küləklər bir zaman məndən əsirdi.

Dünyanın küləkli oynuna düşdüm,
səmt umdum küləkli dor ağacından.
Başsız küləklərdən alan olmadı,
qurtaran olmadı dar ağacından...

...bəlkə axşamları külək aparır,
qayıdıb səhəri külək gətirir.
...indi çox səfərə küləklər gedir,
indi çox xəbəri külək gətirir.

...ölüm də, sevgi də ürəkdən olur-
ilahi, ürəkdən ölür adamlar.
İlahi, ürəkdən əsir küləklər,
İlahi, küləkdən ölür adamlar.

Sonumuz məzardı-kəfən qarışıq...
Son-torpağa çəkir, son-ağa çəkir.
...dağın o üzündən qalxan küləklər
dağın bu üzünü sınağa çəkir.

***

Tapdadı içimi atlı qarışqa,
tapmadı içimi adlı qarışqa-
Qağayı burnutək duzlaşıb içim.

Göylərə yaraşır elə göy adı...
Mənim şeirlərimelegiyadı,
mənim şeirlərimbaşsağlığıdı.

Öldü,sevə-sevə barama qurdu-
bəxtəvər başına baramaqurdu,
bəxtəvər başına-hazır evin var.

Göynədir qafamı buz kimi sürgün...
Adsız şairləri qabaqda bir gün
atsız yəhərlərin günü gözləyir.

**Paşa Talıblı**